# Ədəbiyyat-BSQ

1. Azərbaycan ədəbiyyatında tənqidi realizm ədəbi cərəyanının mətbuat orqanı hansıdır?
● “Molla Nəsrəddin”
● “Füyuzat”
● “Zənbur”
● “Babayi-əmir”
● “Leylək”

2. “Molla Nəsrəddin” jurnalının redaktoru kim olmuşdur?
● Cəlil Məmmədquluzadə
● Mirzə Ələkbər Sabir
● Əhməd Cavad
● Əli bəy Hüseynzadə
● Əbdürrəhim bəy Haqverdiyev

3. Azərbaycanda romantizm ədəbi cərəyanının mətbuat orqanı hansıdır?
● “Füyuzat”
● “Molla Nəsrəddin”
● “Həyat”
● “Açıq söz”
● “Həqiqət”

4. “Füyuzat” jurnalının redaktoru kim olmuşdur?
● Əli bəy Hüseynzadə
● Cəlil Məmmədquluzadə
● Hüseyn Cavid
● Məhəmməd Hadi
● Abdulla Şaiq

5. Bu sənətkarlar Azərbaycan ədəbiyyatında uşaq şeirinin əsas yaradıcıları kimi tanınırlar:
1.A.Səhhət, 2.A.Şaiq, 3.M.Hadi, 4.Ə.Nəzmi, 5.M.Ə.Sabir, 6.H.Cavid.
● 1,2,5
● 3,4,6
● 2,5
● 1,3,5
● 2,4

6. Mollanəsrəddinçilərlə bağlı doğru cavabı seçin:
1.Tənqidi realizmin nümayəndələri idi. 2. Azərbaycan ədəbiyyatına felyeton, satirik marş, tragikomediya kimi yeni janrlar gətirdilər. 3.H.Cavid, M.Hadi, A.Səhhət, Ə.Hüseynzadə və s. bu ədəbi məktəbin nümayəndələri idi. 4.Dil-üslubları xalq dilinə yaxın idi. 5.Onlar alınma sözlər işlətməyə daha meyilli idilər.
● 1,2,4
● 2,4,5
● 2,5
● 2,3
● 1,3,5

7. Mollanəsrəddinçilərlə bağlı səhv cavabları seçin:
1.XX əsrin əvvəllərində ədəbi məktəb yaratmışdılar. 2.Hacı Zeynalabdın Tağıyevin ianəsi ilə nəşr olunan "Molla Nəsrəddin" jurnalının ətrafında toplaşmışdılar. 3.M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Qəmküsar bu ədəbi məktəbin nümayəndələri idi. 4.Onlar romantizmə üstünlük verirdilər. 5.Jurnalın səhifələrində satirik şer, hekayə, felyetonlara və gülməli xəbərlərə geniş yer verilirdi.
- 2,4
- 3,5
- 2,5
- 1,3
- 1,4

8. Füyuzatçılarla bağlı doğru cavabı seçin:
1.Romantizm ədəbi məktəbini yaratmışdılar. 2.Ə.Haqverdiyev, C.Məmmədquluzadə, Ə.Qəmküsar, M.Ə.Sabir bu ədəbi məktəbin nümayəndələri idi. 3.Sonet, marş, türkü kimi janrları Azərbaycan ədəbiyyatına gətirmişdilər. 4."Füyuzat" jurnalının ətrafında toplaşmışdılar. 5.Cəmiyyətdə olan nöqsanları tənqid edən əsərlər yazırdılar.
- 1,3,4
- 2,5
- 1,2,5
- 3,4
- 1,4,5

9. Füyuzatçılarla bağlı səhv cavabı seçin:
1.Tənqidi realizmin əsasını qoymuşdular. 2.Mənsub olduqları bədii yaradıcılıq metodu romantizm adlanır. 3.Felyeton, satirik marş, taziyanə kimi janrları ədəbiyyata gətirmişlər. 4.Bütün türk dünyasını mədəni-siyasi tərəqqi yoluna çıxarmaq istəyirdilər. 5.Dil və üslublarında müəyyən bir təntənə, təmtəraq hiss olunurdu.
- 1,3
- 2,5
- 1,4
- 3,5
- 2,4

10. Romantizm ədəbi cərəyanın nümayəndələri:
1.M.Hadi, 2.M.Ə.Sabir, 3.H.Cavid, 4.Ə.Qəmküsar, 5.Ə.Nəzmi, 6.A.Səhhət, 7.M.Möcüz, 8.Ə.Hüseynzadə.
- 1,3,6,8
- 1,6,7
- 3,4,5,6
- 2,5,6
- 3,4,5,8

11. Tənqidi realizm cərəyanın nümayəndələri:
1.C.Məmmədquluzadə, 2.M.Hadi, 3.Ə.Haqverdiyev, 4.A.Şaiq, 5.Ə.Qəmküsar, 6.H.Cavid, 7.Ə.Nəzmi, 8.A.Səhhət.
- 1,3,5,7
- 2,4,6
- 1,4,7,8
- 3,5,8
- 2,6,7

12. Məntiqi ardıcıllığı tamamlayın: *H. Cavid, M. Hadi, A. Səhhət* ............ .
- A.Şaiq

● C.Məmmədquluzadə
● Ö.F.Nemanzadə
● M.Ə.Sabir
● Ə.Nəzmi

13. Məntiqi ardıcıllığı tamamlayın: *C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev* ........... .
● Ə.Qəmküsar
● H.Cavid
● M.Hadi
● A.Səhhət
● Ə.Hüseynzadə

14. Cəlil Məmmədquluzadə anadan olmuşdur:
● 1869-cu ildə,Naxçıvanda
● 1863-cü ildə,Şamaxıda
● 1890-cı ildə ,Şəmkirdə
● 1870-cı ildə,Bakıda
● 1874-cü ildə,Şəkidə

15. Cəlil Məmmədquluzadə vəfat etmişdir:
● 1932-ci ildə
● 1934-cü ildə
● 1940-cı ildə
● 1938-cı ildə
● 1941-ci ildə

16. C.Məmmədquluzadənin tərcümeyi-halına dair verilənlərdən biri səhvdir:
● 1933-cü ildə vəfat edir və Naxçıvanda dəfn olunur
● 22 fevral 1869-cu ildə Naxçıvanda anadan olmuşdur
● 1882-1887-ci illərdə Qori Müəllimlər Seminariyasında təhsil almışdır
● Müəllimliyə 1887-ci ildə İrəvan quberniyasının Uluxanlı kəndində başlamışdır
● 1897-1903-cü illər arasında Naxçıvan və İrəvan hüquq orqanlarında fəaliyyət göstərmişdir

17. C.Məmmədquluzadə bədii yaradıcılığa nə vaxt və harada başlamışdır?
● XIX əsrin sonunda,Naxçıvanda müəllim işləyərkən
● XX əsrin əvvələrində, Tiflisdə "Molla Nəsrəddin" jurnalının redaktoru olarkən
● XIX əsrin sonlarında, Qori seminariyasında oxuduğu illərdə
● XX əsrin əvvələrində, Təbrizdə olarkən
● 1922-30-cu illərdə, Bakıda yaşadığı dövrdə

18. C.Məmmədquluzadə "Çay dəstgahı" dramını nə vaxt və harada yazmışdır?
● 1889-cu ildə, Baş Noraşendə müəllim işləyərkən
● 1887-ci ildə, Nehrəm kənd məktəbində müəllim işləyərkən
● 1895-ci ildə, Nehrəm kənd məktəbində müəllim işləyərkən
● 1892-ci ildə, Nehrəm kənd məktəbində müəllim işləyərkən
● 1894-cü ildə, Baş Noraşendə müəllim işləyərkən

19. C.Məmmədquluzadə yaradıcılığa hansı əsəri ilə başlamışdır?
● "Çay dəsgahı"
● "Dəli yığıncağı"

● “Danabaş kəndinin əhvalatları”
● “Kamança”
● “Ölülər”

20. Satirik publisistikanın banisi kimdir?
● C.Məmmədquluzadə
● M.Ə.Sabir
● H.Cavid
● Ə.Cavad
● S.Vurğun

21. Biri C.Məmmədquluzadənin hekayələri sırasında verilə bilməz:
● “Ölülər”
● “Qurbanəli bəy”
● “Poçt qutusu”
● “Usta Zeynal”
● “Konsulun arvadı”

22. Biri C.Məmmədquluzadənin pyesləri sırasında verilə bilməz:
● “Poçt qutusu”
● “Kişmiş oyunu”
● “Ölülər”
● “Kamança”
● “Çay dəsgahı”

23. C.Məmmədquluzadənin yaradıcılığına aid dram əsərlərini (pyesləri) seçin:
1.“Poçt qutusu”, 2.“Anamın kitabı”, 3.“Usta Zeynal”, 4.“Kamança”, 5.“Ölülər”, 6.“Konsulun arvadı”.
● 2,4,5
● 1,3,5
● 4,5,6
● 1,3,6
● 1,2,5

24. C.Məmmədquluzadə ədəbiyyatımızda hansı fəaliyyəti ilə məşhurlaşmışdır?
● Tənqidi-realizmin,mollanəsrəddinçilik hərəkatının başçısı kimi
● Komediya janrının əsasını qoyan kimi
● Dram janrının əsasını qoyan kimi
● Realizm cərəyanının banisi kimi
● Alleqorik poemaların əsasını qoyan yazıçı kimi

25. C.Məmmədquluzadənin Qarabağ münaqişəsinə,bədnam qonşuların xəyanətindən doğan böyük faciələrə həsr etdiyi əsəri hansıdır?
● “Kamança”
● “Çay dəsgahı”
● “Danabaş kəndinin əhvalatı”
● “Dəli yığıncağı”
● “Anamın kitabı”

26. C.Məmmədquluzadənin ilk mətbu hekayəsi hansıdır?
● Poçt qutusu

● Qurbanəli bəy
● Oğru inək
● Usta Zeynal
● Saqqallı uşaq

27. “Anamın kitabı” tragikomediyasının əsas ideyası nədir?
● vətənə, ana dilinə məhəbbət
● təbiətə məhəbbət
● cəhalət və gerilik
● qıza məhəbbət
● torpağa məhəbbət

28. C.Məmmədquluzadənin “Anamın kitabı” tragikomediyasında qadın obrazları:
● Zəhrabəyim, Gülbahar
● Nazlı, Kərbəlayı Fatma
● Zeynəb, İzzət, Şərəf
● Səadət, Mələk, Sona
● Kərbəlayı Fatmanisə, Zeynəb

29. “Anamın kitabı” tragikomediyasında qardaşları birləşdirən cəhət:
● Ana dilinə xor baxmaları
● Maraqlandıqları elm sahələri
● Geyindikləri geyimləri
● Vətənpərvər ziyalı olmaları
● Müstəqil Azərbaycan dövləti qurmaq istəmələri

30. C.Məmmədquluzadənin “Anamın kitabı” əsəri ilə bağlı səhv fikirləri müəyyən edin:
1.Qardaşların əqidəsi Gülbahar üçün qəbul edilməzdir. 2.Əsərdə müstəqillik, milli birlik, soykökünə bağlılıq məsələləri qaldırılmışdır. 3.Qardaşları xalqın taleyi narahat edir. 4.Qardaşlar anaları Zəhrabəyimin arzusuna uyğun olaraq ali təhsil almışdır. 5.Qardaşlar vətənlərində kamil mütəxəssis kimi fəaliyyət göstərirlər.
● 3,4,5
● 1,2,5
● 1,3,4
● 2,4,5
● 1,2,3

31. C.Məmmədquluzadənin “Anamın kitabı” əsəri ilə bağlı doğru fikirləri müəyyən edin:
1.Qardaşları xalqın taleyi narahat edir. 2.Qardaşlar anaları Zəhrabəyimin arzusuna uyğun olaraq ali təhsil almışdır. 3.Əsərdə müstəqillik, milli birlik, soykökünə bağlılıq məsələləri qaldırılmışdır. 4.Müstəqil Azərbaycan hökuməti ideyası ilə bağlı çar hakimiyyətinin narahatlığı ifadə edilmişdir. 5.Qardaşların əqidəsi Gülbahar üçün qəbuledilməzdir.
● 3,4,5
● 2,4,5
● 1,4,5
● 1,2,5
● 2,3,4

32. Biri C.Məmmədquluzadənin “Anamın kitabı” tragikomediyasının personajları sırasında verilə bilməz.
● İsgəndər bəy
● Aslan bəy

● Zivər xanım
● Səməd Vahid
● Gülbahar

33. Aşağıdakılardan biri C.Məmmədquluzadəyə aid edilə bilməz:
● Tarixi faciə janrının əsasını qoyması
● Qəzet redaktoru olması
● Kiçik hekayənin böyük ustadı olması
● Satirik publisistikanın banisi olması
● Mənzum pyes müəllifi olması

34. Biri C.Məmmədquluzadə yaradıcılığına aid edilə bilməz:
● Lirik şeirlər və poemalar
● Satirik hekayələr
● Tragikomediya və kiçik pyeslər
● Povest və hekayələr
● Publisist məqalələr və felyetonlar

35. C. Məmmədquluzadənin tragikomediyalarını müəyyən edin:
1.“Ölülər”, 2.“Kamança”, 3.“Anamın kitabı”, 4.“Danabaş kəndinin məktəbi”, 5.“Dəli yığıncağı”, 6.“Çay dəstgahı”, 7.“Oyunbazlar”, 8.“Kişmiş oyunu”.
● 1,3,5
● 2,4,6
● 3,5,8
● 2,5,7
● 4,6,8

36. C.Məmmədquluzadənin tərcümeyi-hal faktlarının düzgün ardıcıllığını müəyyənləşdirin:
1.Qori Müəllimlər Seminariyasında təhsil almışdır. 2.İrəvan və Naxçıvanda hüquq orqanlarında çalışmışdır. 3.İrəvan və Naxçıvan kəndlərində müəllimlik etmişdir. 4.Tiflisdə “Şərqi-Rus” qəzetinin redaksiyasında çalışmışdır.
● 1,3,2,4
● 2,3,4,1
● 4,2,1,3
● 2,4,3,1
● 3,1,4,2

37. Cəlil Məmmədquluzadənin qadın azadlığına həsr etdiyi əsərləri hansılardır?
● “İki ər”, “Qiyamət”
● “Sirkə”, “Şeir bülbülləri”
● “Usta Zeynal”, “Poçt qutusu
● “Ölülər”, “Çay dəsgahı”
● “Qəza müxbiri”, “Ucuzluq”

38. “Anamın kitabı” tragikomediyası neçənci ildə yazılmışdır?
● 1920-ci ildə
● 1918-ci ildə
● 1925-ci ildə
● 1930-cu ildə
● 1924-cü ildə

39. “Anamın kitabı” əsəri neçə məclisdən ibarətdir ?
● 4 məclis
● 3 məclis
● 5 məclis
● 2 məclis
● 6 məclis

40. Cəlil Məmmədquluzadə hansı əsərlərini “Şərqi-rus” qəzetində çap etdirir.
● “Poçt qutusu” ,“Kişmiş oyunu”
● “Kamança”,”Dəli yığıncağı”
● “Çay dəsgahı”, “Anamın kitabı”
● “Usta Zeynal”, “Poçt qutusu
● “İranda hürriyyət”, “Xanın təsbehi”

41. Mirzə Ələkbər Sabir anadan olmuşdur:
● 1862-ci ildə Şamaxıda
● 1861-ci ildə Şuşada
● 1869-cu ildə Şəmkirdə
● 1892-ci ildə Naxçıvanda
● 1882-ci ildə Şəkidə

42. M.Ə.Sabirin müəllimi olmuş, onun bədii yaradıcılığa istiqamətləndirilməsində böyük rolu olan sənətkar:
● S.Ə.Şirvani
● A.Səhhət
● M.Ə.Möcüz
● C.Məmmədquluzadə
● M.Ş.Vazeh

43. M.Ə.Sabirin lirik şeirlərini necə qruplaşdırmaq olar?
● qəzəllər, ictimai-siyasi şeirlər, uşaq şeirləri
● satirik şeirlər, uşaq şeirləri, tərcümələr
● mərsiyələr, mənzum hekayələr, təmsillər
● ictimai-siyasi şeirlər, satirik əsərlər, uşaq şeirləri
● qəzəllər, mənzum hekayələr, uşaq şeirləri

44. Məntiqi ardıcıllığı tamamlayın . “Uşaqdır”, “Bəxtəvər”, “Dindirir əsr bizi”, .............
● “Oxutmuram əl çəkin”
● “Yaz günləri”
● “Səbr eylə”
● “Dilənçi”
● “Bakı fəhlələrinə”

45. M. Ə. Sabir bədii portret yaratmaq qabiliyyətini hansı sahədə ustalıqla nümayiş etdirmişdir ?
● Satirik şeir yaradıcılığında
● Mənzum uhekayələrində
● Uşaq şeirlərində
● İctimai-siyasi şeirlərində
● Qəzəllərində

46. M. Ə. Sabirin "Neylərdin,ilahi" satirası neçənci ildə ,hansı jurnalda çap olunmuşdur?
● 1908-ci ildə, "Molla Nəsrəddin" jurnalında
● 1900-cu ildə, "Füyuzat" jurnalında
● 1905-ci ildə , "Şərqi-rus" qəzetində
● 1904-cü ildə, "Molla Nəsrəddin" jurnalında
● 1903-cü ildə, "Şərqi-rus" qəzetində

47. M. Ə. Sabirin satirik əsərlərinin ruhuna uyğundur:
● maarifçilik
● kinayə
● siyasətdən uzaq olmaq
● sözü ehtiyatla demək
● tərənnüm

48. M. Ə. Sabirin şeirlərini müəyyən edin:
1."Çoban türküsü", 2."Dindirir əsr bizi", 3. "Qız məktəbində" , 4. "Neylərdin ,ilahi", 5. "Dilənçi", 6. "Bəxtəvər", 7."Boranlı qış gecəsi".
● 2,4,6
● 1,3,7
● 3,4,5
● 2,5,7
● 1,5,6

49. M.Ə.Sabirin əsərlərinin baş mövzusu nədir?
● Xalq həyatı
● Öz həyatı
● həkim
● şair
● bənna

50. Biri M. Ə. Sabirin yaradıcılığına aid deyil:
● Kiçik hekayənin böyük ustadı hesab olunurdu
● Tənqidi realizm ədəbi cərəyanının nümayəndəsidir
● "Səttarxana" şeirini ictimai mövzuda yazıb
● Satirik poeziyada tipi öz dilində danışdırmaq Sabir yaradıcılığına aiddir
● Yaradıcılığında dini mərsiyələr, lirik şeirlər, satiralar, felyetonlar müəllifidir

51. M. Ə. Sabirin Yaxın və Orta Şərq ölkəsində qüdrətli xalq şairi kimi şöhrət tapmasında hansı mətbuat orqanı xüsusi rol oynamışdır?
● "Molla Nəsrəddin"
● "Füyuzat"
● "Zənbur"
● "Babayi-əmir"
● "Həyat"

52. M.Ə.Sabirin məktəb, maarif mövzusundakı ən məşhur satirası hansıdır?
● "Oxutmuram,əl çəkin"
● "Səttərxana"
● "Ürəfa marşı"
● "Nə işim var?!"

● “Neylərdin ilahi?!”

53. M.Ə.Sabirin şeirlərini mövzusuna görə məntiqi ardıcıllığı davam edirin. *“Dindirir əsr bizi” ,“Millət şərqisi” , “Oxutmuram əl çəkin!”, ... .*
● “Uşaqdır”
● “Bakı fəhlələrinə”
● “Neylərdin, ilahi?!”
● “Bizə nə?”
● “Əkinçi”

54. M. Ə. Sabir yaradıcılığına aid əsərlərdən biri məntiqi ardıcıllığı pozur: *“Bizə nə”, “Bakı fəhlələrinə”, “Uşaq və buz”, “Əkinçi”, “İstiqbalımız lağlağıdır”.*
● “Uşaq və buz”
● “Bizə nə”
● “Bakı fəhlələrinə”
● “İstiqbalımız lağlağıdır”
● “Əkinçi”

55. “Uşaq və buz”, “Yaz günləri”, “Yalançı çoban” adlı uşaq şeirlərinin müəllifi kimdir?
● M.Ə.Sabir
● A.Şaiq
● A.Səhhət
● H.Cavid
● Ə.Cavad

56. M.Ə.Sabirin şeirləri kimlər tərəfindən “Hophopnamə” adı ilə kitab halında nəşr edilmişdir?
● Abbas Səhhət, Mahmud bəy Mahmudbəyov
● Cəlil Məmmədquluzadə, Hüseyn Cavid
● Abdulla Şaiq, Əli Nəzmi
● Mirzəli Möcüz, Əliqulu Qəmküsar
● Əbdürrəhim bəy Haqverdiyev, Əhməd Cavad

57. M.Ə.Sabir yaradıcılığına aid edilə bilməz:
● qoşma
● qəzəl
● uşaq şeirləri
● satira
● mərsiyə

58. M.Ə.Sabir üslubunda yazanlar arasında Sabir ədəbi məktəbinin davamçıları kimlər idi?
● Əli Nəzmi, Mirzə Əli Möcüz
● Məhəmməd Hadi
● Abbas Səhhət, H. Cavid
● Abdulla Şaiq
● Məmməd Səid Ordubadi

59. Verilmiş şeir parçasının müəllifi kimdir? *Daş qəlbli insanları neylərdin,İlahi?! Bizdə bu soyuq qanları neylərdin, İlahi?!*
● M.Ə.Sabir
● S.Ə.Şirvani

● A.Səhhət
● H.Cavid
● C.Məmmədquluzadə

60. M.Ə.Sabir “Neylərdin, İlahi?!” satirasında hansı mövzunu irəli sürmüşdür?
● Cəhaləti və cəmiyyətdəki haqsızlığa qarşı etiraz səsi
● Təbriz inqilabçılardan olan Səttarxanın mübarizəsi
● Təhsilin, tərəqqinin əleyhinə olanları ifşa etmək
● Bakı küçələrinin bərbad vəziyyətini üzə çıxarmaq
● Bakı fəhlələrinin vəziyyətini göstərmək

61. H.Cavidin “İblis” pyesində Rənanın atasının qatili:
● İbn Yəmin
● Yaralı zabit
● Arif
● Elxan
● İxtiyari qoca

62. H.Cavid hara sürgün edilir?
● Sibirə
● Türkiyəyə
● Aşqabada
● Qırğızıstana
● İrana

63. H.Cavidin “İblis” pyesində nəfs hansı obrazı iblisləşən bir qüvvəyə çevirir?
● Arifi
● İxtiyari Şeyxi
● Rənanı
● Xavəri
● Vasifi

64. H.Cavidin tarixi mövzuda yazdığı pyes:
● “Topal Teymur”
● “Ana”
● “Şeyda”
● “Afət”
● “Maral”

65. H.Cavidin əsərlərindən hansı poema janrındandır?
● “Azər”
● “Maral”
● “Peyğəmbər”
● “Şeyda”
● “Ana”

66. H.Cavidin “İblis” mənzum faciəsi neçə pərdədən ibarətdir?
● 4
● 3
● 5

● 6
● 7

67. H.Cavid neçənci ildə və harada anadan olmuşdur?
● 1882-ci ildə Naxçıvanda
● 1888-ci ildə Şamaxıda
● 1892-ci ildə Şəmkirdə
● 1895-ci ildə Şəkidə
● 1866-cı ildə Gəncədə

68. H.Cavidin "İblis" mənzum faciəsində Mələk müharibənin baş vermə səbəbini kimdə görürdü?
● İblisdə
● Arifdə
● Elxanda
● Vasifdə
● İbn Yəmində

69. H. Cavidin hansı əsərinin mövzusu I Dünya müharibəsinə həsr olunmuşdur?
● "İblis"
● "Səyavuş"
● "Maral"
● "Şeyda"
● "Ana"

70. H. Cavidin nəsrlə yazılmış pyesləri hansıdır?
1."Maral", 3."Şeyda" 5."Afət", 7."Topal Teymur", 2."Uçurum", 4."Xəyyam", 6."İblis",8."Peyğəmbər"
● 1,3,5,7
● 2,3,4,5
● 1,2,6,8
● 3,4,7,8
● 1,4,5,6

71. Hüseyn Cavidin hansı əsərində Bakı mətbəə işçilərinin həyatından bəhs edilir?
● " Şeyda"
● "Şeyx Sənan"
● "Knyaz"
● "Ana"
● "Maral"

72. H.Cavidin şeirlərdən ibarət kitablarını müəyən edin:
1."Keçmiş günlər" 2."Maral " 3."Bahar şəbnəmləri" 4."Çiçək sevgisi" 5."Bir ahi-məzlumanə"
● 1,3
● 2,5
● 1,4
● 4,5
● 2,3

73. H.Cavidin bu şeiri ədəbiyyatımızda süjetli lirikanın ən gözəl nümunəsidir:
● "Qız məktəbində"
● "Öksüz Ənvər"

● “Uyuyur”
● “Çiçək sevgisi”
● “Məzlumlar üçün”

74. H.Cavidin dramaturgiyaları ilə bağlı uyğunsuzluğu göstərin:
● “Topal Teymur” mənzum dramdır
● “Maral” nəsrlə yazılmış pyesdir
● “Knyaz” mənzum pyesdir
● “Ana” mənzum faciədir
● “Səyavuş” mənzum faciədir

75. H.Cavidin tarixi mövzuda yazılmış bu əsərində tiranlıq əks etdirilməklə yanaşı türkün qəhrəmanlığı və faciəsi göstərilir:
● “Topal Teymur”
● “Xəyyam”
● “Peyğəmbər”
● “Knyaz”
● “Ana”

76. H.Cavidin həyat və yaradıcılığı ilə bağlı səhv cavabı göstərin:
● 1941-ci ildə Bakıda vəfat etmişdir
● İlk şeirlərini “Gülçin” təxəllüsü ilə yazmışdır
● Mənzum faciənin əsasını qoymuşdur
● Həzəc bəhrinin yeni növünü yaratmışdır
● 1882-ci ildə Naxçıvanda anadan olmuşdur

77. Bu faciədə dini-əfsanəvi şəxsiyyətin timsalında insanın mənəvi ucalığını,əsl eşqin dini etiqad üzərindəki təntənəsini əks etdirmişdir :
● “Şeyx Sənan”
● “Uçurum”
● “Azər”
● “Knyaz”
● “Maral”

78. *Bənsiz də,əmin ol sizə rəhbərlik edən var:*
*Qan püskürən, atəş savuran kinli krallar,*
Verilmiş bu misralar H.Cavidin hansı əsərindəndir ?
● “İblis”
● “ Maral”
● “Knyaz”
● “Xəyyam”
● “Ana”

79. H.Cavid hansı əsərində Ə.Firdovsinin “Şahnamə” əsərinin motivlərinə müraciət etmişdir ?
● “Səyavuş”
● “Maral”
● “Ana”
● “Knyaz”
● “Azər”

80. Hüseyn Cavidin ilk dramatik əsəri hansıdır?
● “Ana”
● “Maral”
● “İblis”
● “Səyavuş”
● “Şeyx Sənan”

81. Ə.Cavadın Xalq Cümhuriyyətinin süqutundan sarsılaraq yazdığı şeirlərinə aiddir:
1.“Can Azərbaycan”, 2.“Nə yazım?”, 3.“Qafqazlısan, sev Qafqazı”, 4.“Unudulmuş sevda”, 5.“Olsun qoy”, 6.“Azərbaycan bayrağına”.
● 2,4,5
● 1,3,5
● 2,5,6
● 1,4,6
● 2,3,6

82. Bu şairi cumhuriyyət nəğməkarı adlandırırlar.
● Ə.Cavad
● S.Vurğun
● R.Rza
● S.Rüstəm
● M.Müşfiq

83. Türkiyədə milli marş kimi səslənən “Çırpınırdı Qara dəniz” şeirinin müəllifi kimdir?
● Əhməd Cavad
● Hüseyn Cavid
● Məhəmməd Hadi
● Abdulla Şaiq
● Abbas Səhhət

84. Əhməd Cavadın Cümhuriyyət dövründə yazdığı “Dalğa” kitabına daxil olan şeirlər:
1.“Can Azərbaycan”, 2.“Al bayraq”, 3.“Qafqazlısan,sev Qafqazı!”, 4.“Unudulmaz sevda”, 5.“Qardaş”, 6.“Nə yazım?”.
● 1,2,5
● 3,4,5
● 1,3,5
● 2,4,6
● 3,4,6

85. Bunlardan biri Ə.Cavadın əsəridir?
● “Çırpınırdı Qara dəniz”
● “Bir may”
● “Küləklər”
● “Bu gün”
● “Səttarxana”

86. Ə.Cavadın “Səsli qız” poemasının baş qəhrəmanı kimdir?
● Sara
● hökmdar
● din xadimi

● Arqun
● varlı adamlar

87. Ə.Cavadın “Səsli qız” poemasının əsas ideyası nədir?
● azadlıq uğrunda mübarizənin tərənnümü
● saf məhəbbətin tərənnümü
● qadın hüquqsuzluğu
● qadın azadlığı
● sovet quruculuğunun tərənnümü

88. Ə.Cavadın “Səsli qız” poeması hansı sonluqla bitir?
● hökmdarın ölümü ilə vətənin azad olması
● düşmənin qələbəsi ilə
● Saranın ölümü
● müharibənin başlaması ilə
● Arqunun ölümü ilə

89. Ə. Cavadın “Səsli qız” əsərinin məzmunu ilə bağlı yanlış fikri müəyyən edin.
● Sara ölümdən xilas olmaq üçün hökmdarın məclisində şərab paylamağa razılıq verir.
● Qalib hökmdar məğlub ölkənin matəminə hörmətlə yanaşmır.
● Saranın oxuduğu mahnıda ölkənin işğalçılara qarşı kini ifadə olunur.
● Ölkədəki bəzi vəzifə sahibləri qalib hökmdara yaltaqlanır.
● Sara həm nişanlısının, həm də xalqın qisasını alır.

90. Ə. Cavadın “Səsli qız” əsəri ilə bağlı yanlış fikri seçin:
● Saranı qalib şahın yanına planlı olaraq göndərirlər ki, şahı zəhərləsin
● Əsərdə vahid süjet xətti yoxdur, müstəqil hissələrdən ibarətdir
● Saranın nişanlısı döyüşdə düşmən ordusu tərəfindən oxlanıb öldürülür
● Padişahın ölümündən sonra xalq üsyan edir, işğalçıları qovur
● Poemanın əsas ideyası vətənin müdafiəsi, xalqın azadlığıdır

91. Əhməd Cavadın Cümhuriyyət dövründə qələmə aldığı əsərlərin sırasında verilə bilməz:
● “Quşlara”
● “Azərbaycan bayrağına”
● “Can Azərbaycan”
● “Al bayraq”
● “Qardaş”

92. *Sənin səsin, gözəl qız ,*
*Səslərin ən gözəli.*
*Eşitmədim belə səs*
*Dünyanı dinləyəli...*
Verilmiş şeir parçası hansı əsərdəndir ?
● “Səsli qız”
● “Kür”
● “Pambıq dastanı”
● “Quşlara”
● “Unudulmuş sevda”

93. V.Şekspirin “Otello”,A.Puşkinin “Kapitan qızı”,F.Rablenin “Qarqantua və Pantaqruel” əsərlərini tərcümə edən şair kimdir ?
● Əhməd Cavad
● Hüseyn Cavid
● Məhəmmədhüseyn Şəhriyar
● Cəfər Cabbarlı
● Rəsul Rza

94. Biri sovet dövrü Azərbaycan ədəbiyyatı nümayəndələri sırasında verilə bilməz.
● M.Ə.Sabir
● S.Rüstəm
● C.Cabbarlı
● M.Hüseyn
● S.Vurğun

95. Represiya ədəbiyyatının nümayəndələri verilmiş variantı müəyyən edin:
1.H.Cavid, 2.R.Rza, 3.Ə.Cavad, 4.S.Rüstəm, 5.M.Gülgün, 6.M.Müşfiq.
● 1,3,6
● 2,4,5
● 1,2,4
● 3,6
● 1,4,6

96. Aşağıdakılardan biri Represiya ədəbiyyatının nümayəndəsidir:
● M.Müşfiq
● R.Rza
● C.Cabbarlı
● S.Rüstəm
● S.Vurğun

97. Represiya ədəbiyyatının nümayəndələri sırasında verilə bilməz:
● İ.Əfəndiyev
● H.Cavid
● M.Müşfiq
● Ə.Cavad
● S.Hüseyn

98. Məntiqi ardıcıllığı tamamlayın:*H. Cavid,Ə. Cavad,Ö. F. Nemanzadə* ......... .
● M.Müşfiq
● S.Vurğun
● N.Xəzri
● S.Tahir
● Ə.Vahid

99. Azərbaycan sovet ədəbiyyatının 20-30-cu illərinə xas olan xüsusiyyətlərə aid edilə bilməz.
● Türkçülüyün və cümhuriyyətçiliyin tərənnümü artır, siyasi –publisistik şeirin meydanı genişlənirdi
● Sovet cəmiyyətinin nöqsanlarından danışmaq, fərdi yaşantıları əks etdirmək qadağan edilirdi
● Azərbaycançılığın əsas əlaməti olan türkçülük, millətçilik hesab olunurdu
● Milli tarixi mövzu və ideyalara yer verilmirdi
● Sinfi mənafelərin mübarizəsindən danışılır, vulqar beynəlmiləlçilik təbliğ olunurdu

100. Azərbaycan sovet ədəbiyyatının 20-30-cu illərinə xas olan xüsusiyyətləri müəyyən et:
1. Kommunist ideologiyası milli məfkurəyə qarşı qoyulmuşdu.
2. Ədəbiyyatda vətənpərvərlik hissləri təbliğ olunur, türkçülük, milli dövlətçilik tərənnüm olunurdu.
3. Bakıda yaradılan "Qızıl qələmlər" cəmiyyəti gənc yazıçılardan ibarət idi və yaşlı nəslə qarşı qoyulurdu.
4. 1928-ci ildə yaradılmış Azərbaycan Yazıçılar Cəmiyyəti bütün nəsillərdən olan yazıçıları sovet ideologiyası ətrafında birləşməyə çalışırdı.
5. Azərbaycanın milli varlığının təsdiqi uğrunda mübarizə ön plana çəkilirdi.

- 1,3,4
- 2,4,5
- 1,2,4
- 2,3,5
- 1,4,5

101. Bu əsərlərdən birində xalq məişətinin, el adət-ənənələrinin təsvirinə geniş yer verilmişdir?

- M.Şəhriyar "Heydərbabaya salam"
- R.Rza "Qızılgül olmayaydı"
- B.Vahabzdə "Latın dili"
- S.Vurğun "Aygün"
- S.Rüstəm "Təbrizim"

102. *"Türkün dili tək sevgili, istəkli dil olmaz, Şair ola bilməzsən, anan doğmasa şair!".* "Türkün dili" adlı şeirdən götürülmüş bu misraların müəllifini göstərin:

- M.Şəhriyar
- M.Hadi
- M.Müşfiq
- A.İldırım
- H.Cavid

103. Şəhriyarın ana dilində yazdığı poemalarına aiddir:
1. "Səhəndiyyə",
2. "Stalinqrad qəhrəmanları",
3. "Şeir və hikmət",
4. "Heydərbabaya salam",
5. "Qardaşım oğlu Huşəngə",
6."Gecənin əfsanəsi",
7. "Nişapurda günəş batarkən".

- 1,4
- 2,4
- 3,5
- 6,7
- 5,7

104. M.Şəhriyarın hansı poemasında İkinci dünya müharibəsi ilə bağlı hadisələrə yer verilmişdir?

- "Stalinqrad qəhrəmanları"
- "Qardaşım oğlu Huşəngə"
- "Nişapurda günəş batarkən"
- "Gözüm aydın"
- "Şeir və hikmət"

105. M.Şəhriyar yaradıcılığının ilk dövrlərində şeirlərini hansı təxəllüslə yazmışdır?
● “Behçət”
● “Gülçin”
● “Molla”
● “Seyid”
● “Hüseyni”

106. M.Şəhriyarın “Nişapurda Günəş batarkən”, “Qardaşım oğlu Huşəngə”, “Gecənin əfsanəsi” əsərlərini birləşdirən cəhət:
● tərcümeyi-hal səciyyəli olması
● Şimali Azərbaycan məsələsinə yer verilməsi
● satirik mövzuda yazılmaları
● “Varlıq” dərgisində dərc olunmaları
● insanları qardaşlığa, xeyirxah əməllərə çağırış motivlərinin olması

107. Hansı əsərlərdə M. Şəhriyarın nakam məhəbbəti təsvir olunmuşdur?
*1.“Gözüm aydın”, 2.“Həzin nalələr, 3.“Dəli Pəri”, 4.“Döyünmə-söyünmə”, 5.“Odda yanan pərvanə”, 6.“El bülbülü”.*
● 2,3,5
● 1. 2,4
● 2,3,6
● 1,2,6
● 3,4,5

108. M.Şəhriyarın bu əsərində Vətən haqqında səmimi hisslər tərənnüm olunmuşdur.
● “Heydərbabaya salam”
● “Şeir və hikmət”
● “Stalinqrad qəhrəmanları”
● “Gecənin əfsanəsi”
● “Türkün dili”

109. Məhəmmədhüseyn Şəhriyar neçənci illərdə yaşamışdır ?
● 1905-1988-ci illər
● 1910-1990-cı illər
● 1890-1930-cu illər
● 1905-1950-ci illər
● 1915-1990-cı illər

110. M.Şəhriyar bu şeirlərində həyatda müşahidə etdiyi haqsızlığı,ədalətsizliyi,yoxsulluğu təsirli bir dillə əks etdirir:
*1) “Şatır oğlan” 2) “Dəli Pəri” 3) “Hara qaçsın insan?” 4) “Türkün dili” 5) “İman ilə getdi”*
● 1,3,5
● 2,4,5
● 1,4,5
● 3,4,5
● 2,3,4

111. C.Cabbarlının ilk tarixi dramı hansıdır?
● “Nəsrəddin şah”
● “Od gəlini”

● “Trablis müharibəsi”
● “1905-ci ildə”
● “Ədirnə fəthi”

112. C.Cabbarlının bu əsəri ədəbiyyatımızda xalqın tarixi və milli taleyi probleminə həsr olunmuş ilk tarixi pyesdir.
● “Od gəlini”
● “Ədirnə fəthi”
● “Nəsrəddin şah”
● “1905-ci ildə”
● “Trablis müharibəsi”

113. Biri C.Cabbarlı yaradıcılığına aid edilə bilməz:
● povest
● pyes
● lirik şeirlər
● hekayə
● satirik şeirlər

114. C.Cabbarlının bu əsərində qadın azadlığı, müstəqilliyi və özünütəsdiqi dramın əsas mövzusudur.
● “Sevil”
● “Almaz”
● “Solğun çiçəklər”
● “Vəfalı Səriyyə”
● “Oqtay Eloğlu”

115. Məntiqi ardıcıllığı tamamlayın . “Dilarə”, “Firuzə”, “Dilbər” ......... .
● “Gülər ”
● “Sevil”
● “Aslan və Fərhad”
● “Mənsur və Sitarə”
● “Qız qalası”

116. C.Cabbarlının yaradıcılığı ilə bağlı səhv fikir hansıdır?
● Komediya, roman və povest müəllifidir
● Həm tarixi, həm də müasir mövzuda dram əsərləri var
● Epik yaradıcılığını hekayələri və “Qız qalası” poeması tutur
● Həm lirik, həm də satirik şeirləri var
● Hər üç ədəbi növdə əsərlər yazmışdır

117. “Trablis müharbəsi” və “Ədirnə fəthi” əsərləri üçün ortaq cəhətləri seçin.
1. Hər iki əsərin mövzusu Türkiyə həyatından alınmışdır.
2.Hər iki əsərdə Ənvər paşa obrazı yaradılmışdır.
3. Hər iki əsəri Xalq Cümhuriyyəti dövründə yazmışdır.
4. Hər iki əsərdə müəllifin Gənc Türklər inqilabına rəğbəti diqqəti cəlb edir.
5. Hər iki əsərdə Türkiyənin Balkanlarda apardığı hərbi əməliyyat təsvir olunur.
● 1,2,4
● 3,4
● 2,3,5
● 1,4

● 2,3,4

118. Milli hökumət devrildikdən sonra C.Cabbarlı hansı əsərləri ilə milli kədərini ifadə edir?
● “Aydın”, “Oqtay Eloğlu”
● “Yaşar”, “Dönüş”
● “Vəfalı Səriyyə”, “Solğun çiçəklər”
● “Trablis müharibəsi”, “Ədirnə fəthi”
● “Almaz”, “Sevil”

119. C.Cabbarlının həyat və yaradıcılığı haqqında verilənlərdən biri yanlışdır:
● 1915-ci ildə nəşr olunan “Açıq söz” qəzetinin redaktoru olmuşdur
● İlk mətbu əsəri 1915-ci ildə “Məktəb” jurnalında dərc olunan “Bahar” şeiridir
● 1920-ci ildə yaradılmış “Gənc müsavatçılar” təşkilatının baş katibi seçilmişdir
● Satirik şeirlərində M. Ə. Sabir ənənəsinin davamçısıdır
● 1934-cü il dekabrın 31-də vəfat etmişdir

120. “Oqtay Eloğlu” əsərinin məzmunu ilə bağlı səhv cavabı göstərin.
● Oqtay Firəngizdən ayrılmaq üçün Aslan bəyin verdiyi pulu qəbul edir
● Əsər romantik faciədir və 6 pərdədən ibarətdir
● Əsərin ideya daşıyıcısı və qəhrəmanı Oqtaydır
● Əsərin sonunda Oqtay saxta sandığı Firəngizi öldürməklə yaddaşındakı həqiqi Firəngizi yaşadır
● Xalq və xalqa münasibət mövzusu pyesin əsas leymotivini təşkil edir

121. “Oqtay Eloğlu” əsərindəki hadisələrin ardıcıllığını göstərin:
1.Oqtay üzüyünü satıb, tamaşanın oynayacağı mənzilin kirayəsinə verir.
2. Firəngizin Oqtaya olan sevgisini dilə gətirməsi
3. Firəngizin Amalya rolunda Oqtayın qarşısına çıxması
4. Tamaşa haqqında çıxan məqalənin müzakirəsi
5. Oqtayın sürgündən qayıtması və bacısı Sevərlə qarşılaşması.
● 1,2,4,5,3
● 1,3,5,4,2
● 5,4,3,2,1
● 2,3,5,4,1
● 3,1,2,4,5

122. “Oqtay Eloğlu” əsəri ilə bağlı səhv fikri göstərin:
● Oqtaya qarşı duran aşkar bir cəbhə yoxdur
● Mühitə zəmanəyə etiraz motivi əsərdə aparıcıdır
● Xalq və xalqa münasibət mövzusu pyesin əsas leytmotivini təşkil edir
● 6 pərdədən ibarət romantik faciədir
● Aslan bəy Firəngizi şəxsi mənafeyinə qurban verir

123. C.Cabbarlının “Oqtay Eloğlu” əsərində Oqtay surəti ilə əlaqədar verilmiş fikirlərdən bir yanlışdır:
● Oqtayın faciəsi onun şəxsi faciəsidir
● Millət və teatr idealı onun şəxsiyyətinin istinad nöqtəsidir
● Müəyyən mənada, Oqtayın protipi C. Cabbarlı özü sayıla bilər
● Oqtayın daxili böhranı Aydına nisbətən daha konkretdir
● Mövcud cəmiyyətdə yaşayan əqidəsizləri, pul və rütbə düşkünlərini mənəvi cəhətdən şikəst adamlar hesab edir

124. C.Cabbarlının “Oqtay Eloğlu” pyesində Oqtayın məqsədi nə idi?

● Milli teatr yaratmaq
● Ailə qurmaq
● Tanınmış aktyor olmaq
● Varlı olmaq
● Aslan bəydən intiqam almaq

125. “Oqtay Eloğlu” əsərindəki Firəngiz surəti ilə bağlı səhv cavabı göstərin:
● Firəngiz Oqtaydan kasıb olduğu üçün ayrılır
● Aslan bəy Firəngizi şəxsi mənafeyinə qurban verir
● O səhnəyə can atan ilk qaranquşdur
● Firəngizi bədbəxt edən mühitdir
● Firəngizin ölümü həqiqət axtaran Oqtayın əsl həqiqəti üzə çıxarmaq cəhdidir

126. C.Cabbarlının mövzu və ideya bağlılığı olan əsərləri:
1.“Aydın”, “Oqtay Eloğlu”,
2.“Vəfalı Səriyyə”, “Sevil”,
3.“Solğun çiçəklər”, “Almaz”,
4.“Trablis müharibəsi”, “Ədirnə fəthi”,
5.“Nəsrəddin şah”, “Od gəlini”,
6.“Yaşar”, “1905-ci il”.
● 1,4
● 2,5
● 1,3,6
● 2,3
● 2,4,5

127. C.Cabbarlı bu əsəri ilə öz mənəvi böhranını tamamlamışdır:
● “Od gəlini”
● “Ədirnə fəthi”
● “Sevil”
● “Yaşar”
● “Almaz”

128. C.Cabbarlının tarixi pyesləri sırasında verilə bilməz:
● “Dönüş”
● “Od gəlini”
● “Ədirnə fəthi”
● “Trablis müharibəsi”
● “Nəsrəddin şah”

129. C.Cabbarlının “Oqtay Eloğlu” əsərindəki qadın obrazları sırasında verilə bilməz:
● Gültəkin
● Nərgiz
● Firəngiz
● Sevər
● Nadya

130. Biri C.Cabbarlının pyesləri sırasında verilə bilməz:
● “Mənsur və Sitarə”
● “Almaz”

● “Vəfalı Səriyyə”
● “Solğun çiçəklər”
● “Aydın”

131. Cəfər Cabbarlı neçənci illərdə yaşayıb ?
● 1899-1934-cü illərdə
● 1890-1920-ci illərdə
● 1893-1910-cu illərdə
● 1895-1940-cı illərdə
● 1898-1943-cü illərdə

132. Cəfər Cabbarlının həyatı ilə bağlı verilənlərdən biri yanlışdır.
● 1890-cı ildə Naxçıvanda dünyaya gəlmişdir .
● 1934-cü ildə dünyasını dəyişmişdir
● 1915-ci ildə Bakı Sənaye məktəbinə daxil olmuşdur.
● Erkən yaşda atasını itirən Cəfəri anası böyüdür.
● 1899-cu ildə xızıda dünyaya gəlmişdir.

133. Cəfər Cabbarlını satirik şeirləri kimi verilənlərdən biri yanlışdır .
● “Boranlı qış gecəsi”
● “Görməmişəm, eşitməmişəm”
● “Unudulmaz yara”
● “Görməkdəyəm”
● “Dübarə-səbarə”

134. “Oqtay Eloğlu” əsəri neçənci ildə yazılmışdır?
● 1922-ci ildə
● 1915-ci ildə
● 1930-cu ildə
● 1910-cu ildə
● 1921-ci ildə

135. *“Bunlar Azərbaycan xalqı üçün sənət yaradacaq,mübarizə aparacaq ,səhnə düzəldəcəklər.”* Verilmiş bu sözlər “Oqtay Eloğlu” əsərində kimin dilindən söylənilir ?
● Oqatyın
● Nadyanın
● Firəngizin
● Aslan bəyin
● Səməd bəyin

136. S. Vurğunun pyeslərini yazılma ardıcıllığı ilə düzün: 1.“Fərhad və Şirin”, 2.“İnsan”, 3.“Vaqif”, 4.“Xanlar”.
● 3,4,1,2
● 4,3,2,1
● 3,4,2,1
● 1,2,3. 4
● 3,1,4,2

137. “Şair, nə tez qocaldın sən”, “Mən tələsmirəm” şeirlərinin müəllifi kimdir?
● Səməd Vurğun
● Hüseyn Cavid

● Aşıq Ələsgər
● Süleyman Rüstəm
● Rəsul Rza

138. “Vaqif” pyesi ilə bağlı fikirlərdən biri səhvdir.
● Əsər Vaqifin evində, Şuşada Vaqifin oğlu Əlibəyin toyu ilə başlayır
● Vaqif əsərdə xalqın mənəvi qüdrətini,zəka və ruhunu təmsil edir
● Əsərin iştirakçıları 2 əsas qrupa bölünür: əzənlər və əzilənlər
● Eldar əsərdə xalqın fiziki qüdrətini əks etdirir
● Mənzum dramdır, heca vəznində yazılıb, 5 pərdə 2 şəkildən ibarətdir

139. S.Vurğunun “Vaqif” dramında həyatın sınağından şərəflə çıxa bilməyən, saray intriqalarının qurbanı olan surət:
● Xuraman
● Gülnar
● İbrahim xan
● Qaçar
● Tükəzban

140. S.Vurğunun şeir kitabları hansılardır? *1.“Azad ilham”, 2.“İstiqbal təranəsi”, 3.“Fanar”, 4.“Şairin andı”.*
● 3,4,
● 1,2
● 1,4
● 2,3
● 1,3

141. S.Vurğunun əsərləri sırasında verilənlərdən biri yanlışdır ,
● “Oqtay Eloğlu
● “Muğan”
● “Fərhad və Şirin”
● “Aygün”
● “Xanlar”

142. Bəndlərdən birini seçməklə sıranı davam etdirin: *“Şairin andı”,* ................ .
● “Fanar”
● “Aygün”
● “Şairin ölümü”
● “Muğan”
● “Dar ağacı”

143. *Bir boynu olsaydı bəşəriyyətin, Onu bir qılıncla vurardım, yəqin,-* misraları S.Vurğunun “Vaqif” pyesində hansı obrazın dili ilə verilir?
● Qacar
● İbrahim xan
● Eldar
● Kürd Musa
● Vaqif

144. Səməd Vurğunun “Vaqif” mənzum dramı neçə pərdədən ibarətdir ?

● 5 pərdə
● 3 pərdə
● 4 pərdə
● 2 pərdə
● 6 pərdə

145. Səməd Vurğunun müharibə dövründə qələmə aldığı əsərlər sırasıda verilə bilməz.
● “Aygün”
● “Fərhad və Şirin”
● “Bakını dastanı”
● “Hürmüz və Əhriman”
● “ayın əfsanəsi”

146. Azərbaycanın xalq şairi fəxri adı ilk dəfə kimə verilmişdir ?
● Səməd Vurğuna
● Mir Cəlala
● İlyas Əfəndiyeva
● Cəfər Cabbarlıya
● Rəsul Rzaya

147.  Ş.Rustavelinin “Pələng dərisi geyinmiş pəhləvan” əsərindən bir hissə,A.Puşkinin “Yevgeni Onegin” romanı,N.Gəncəvinin “Leyli və Məcnun” əsərlərini  kim tərcümə etmişdir ?
● Səməd Vurğun
● Rəsul Rza
● Cəfər Cabbarlı
● Mir Cəlal
● İlyas Əfəndiyev

148. *Bilsin ana torpaq,eşitsin vətən ,*
*Müsəlləh əsgərəm mən də bu gündən.* Verilmiş şeir parçası hansı şairə  aiddir ?
● Səməd Vurğun
● Rəsul Rza
● Mir Cəlal
● Əhməd Cavad
● İlyas Əfəndiyev

149. Səməd Vurğunun ilk şeir kitabı hansıdır?
● “Şairin andı”
● “Fanar”
● “Şeirlər”
● “Könül dəftəri”
● “Şairin səsi”

150. Səməd Vurğunun “Vaqif” dramında  iştirak edən obrazlar sırasında verilənlərdən biri səhvdir .
● Natəvan
● Vidadi
● Xuraman
● İlyas
● Qacar

151. R.Rzanın dramatik növdə yazdığı əsəri hansıdır?
● “Vəfa”
● “Pilot qardaş”
● “Qızılgül olmayaydı”
● “İntiqam!”
● “Bəxtiyar”

152. R.Rza “Qızılıgül olmayaydı” poemasını kimə həsr etmişdir?
● M.Müşfiqə
● C.Cabbarlıya
● M.Hadiyə
● M.Şəhriyara
● S.Vurğuna

153. R.Rzanın “Qızılıgül olmayaydı” poemasında M.Müşfiqin bir məclisdə oxuduğu hansı şeirin adı çəkilir?
● “Oxu tar!”
● “Küləklər”
● “Bir may”
● “Günün səsləri”
● “Vuruşmalar”

154. R.Rzanın “Qızılıgül olmayaydı” poeması ilə bağlı fikirlərdən biri səhvdir?
● Poema heca vəznində yazılmışdır
● Əsərdə bir çox ədiblərin repressiyaya məruz qalmasından söhbət açılır
● Dostların ilk tanışlığı “Gənc işçi” də olur
● Əsər M.Müşfiqin faciəvi həyatına həsr olunub
● Poemada Dilbərə təskinlik verən şairə obrazı var

155. Rəsul Rza neçənci ildə ,harada dünyaya gəlmişdir ?
● 1910-cu il,Göyçayda
● 1905-ci il,Naxçıvanda
● 1900-cü il,Bakıda
● 1907-ci il,Şamaxıda
● 1906-cı il,Qubada

156. Azərbaycan ədəbiyyatında sərbəst vəzn onun adı ilə bağlıdır.
● R.Rza
● S.Vurğun
● C.Cabbarlı
● S.Rüstəm
● M.Müşfiq

157. “R.Rza ədəbi məktəbi” şairin hansı yaradıcılığı ilə əlaqədardır:
● Sərbəst vəzni Azərbaycan ədəbiyyatına gətirməsi ilə
● Əruz vəzni Azərbaycan ədəbiyyatına gətirməsi ilə
● Publisistik yazılardan istifadə etməsi ilə
● Heca vəznini inkişaf etdirməsi ilə
● Şihafi xalq ədəbiyyatını yazılı ədəbiyyata gətirməsi ilə

158. Bu şeir R. Rzanı ədəbiyyat aləmində tanıtdırmış və onun yaradıcılıq manifesti kimi qiymətləndirilir:

● “Bolşevik yazı”
● “Çapey”
● “Bu gün”
● “Çinar”
● “Vətən”

159. Rəsul Rzanın İmadəddin Nəsimiyə həsr etdiyi poema hansıdır ?
● “Son gecə”
● “Xalq  şairi”
● “Qızılgül olmayaydı”
● “İnsan şəkli”
● “Vaxt var ikən”

160. Bu sənətkar 1960-cı illərdən başlayaraq novator düşüncənin rəhbərlərindən biri kimi şöhrət qazanmış və ədəbi məktəb yaratmışdır. Söhbət kimdən gedir?
● R.Rza
● İ.Şıxlı
● İ.Əfəndiyev
● B.Vahabzadə
● M.Cəlal

161. R.Rzanın yaradıcılığı ilə bağlı səhv fikir hansıdır?
● Bütün əsərlərini nəzmlə yazmışdır
● Əsərlərinin çox hissəsini sərbəst vəzndə yazmışdır
● Ədəbi növlərin hər üçündə əsərlər yazmışdır
● Heca vəznində də bəzi şeirlər yazmışdır
● Bolşevik yazı şerindən sonra proletar məfkurəçisi olan şair kimi tanınmışdır.

